# Azərbaycan qızıl medalların hesabını açıb









**Taekvondoçu Ziya Həsənli (63 kq) Azərbaycana III MDB Oyunlarında ilk qızıl medalı qazandırıb.**

Mingəçevirdə "Kür" Olimpiya Tədris-İdman Mərkəzində keçirilən taekvondo turnirinin finalında o, Rusiya təmsilçisi Yeqor Lakini məğlub edərək III MDB Oyunlarının çempionu olub.

Bu, Azərbaycanın evsahibliyi etdiyi Oyunlarda ilk qızıl medalıdır.

Qadınların yarışında Humay Dadaşova (46 kq) və Məryəm Məmmədova (53 kq) finalda qalib gələrək, III MDB Oyunlarının qızıl medalını qazanıblar.

Elcan Əliyev (74 kq) və Ümid Rəhimzadə (54 kq) finalda məğlub olaraq, gümüş medala yiyələniblər. Daha altı taekvondoçumuz bürünc medala sahiblənib: kişilərdə Tamerlan Yaqubov (54 kq), Allahverdi Məmmədov və Zeynal Əliyev (hər ikisi - 87 kq), qadınlarda isə Səlimə Quliyeva (46 kq), Nilufər Borci (53 kq) və Nərgiz Kazımova (62 kq).

Azərbaycanlı samboçu Abdullətif Musayev (53 kq) III MDB Oyunlarında qızıl medala layiq görülüb. O, Qöygöl Olimpiya İdman Kompleksində keçirilən final görüsündə Özbəkistan təmsilçisi Qamzat Maksetbayevi məğlub edib.

Bunun ardınca daha bir samboçumuz III MDB Oyunlarında medal qazanıb - Rüstəm Qasımzadə (58 kq) gümüş mükafat alıb.O, finalda Rusiya təmsilçisi İsmail Maxozevə məğlub olub.

Azərbaycan samboçusu Nihad Rəhimov (64 kq) qızıl medal qazanıb. O, finalda Rusiya təmsilçisi Artyom Karisova qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qəbələdə isə azərbaycanlı atıcı Mürtəza Novruzlu gümüş medal qazanıb. İdmançımız stend atıcılığında ikinci olub. Özbəkistanlı Azamat Kayumov qızıl medala sahiblənib, rusiyalı Kiril Baqrov üçüncü yeri tutub.

Daha bir stend atıcısı Nərmin Cəfərova III MDB Oyunlarında ölkəmizə növbəti gümüş medal qazandırıb.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 30 sentyabr (№ 209).- S.10.